## ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN EKOLOJİ SİYASƏTİ

**Lalə Mikayılzadə**

*AMEA-nın Akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, Bakı*
*lala-mak70@mail.ru*

Qədim Azərbaycan torpağının təbiəti çox gözəl və rəngarəngdir. Tanrı bizə bənzərsiz bir təbiət gözəlliyi bəxş etmişdir. Ulu Öndər Heydər Əliyev Azərbaycan təbiətinin toxunulmazlığını qorumağın vacibliyini elə buna görə də zəruri saymışdır. Təbiətə qarşı çıxanlara çox hiddətlənirdi : "Mən 1993-cü ildə Bakıya gələrkən bizim əkdiyimiz, becərdiyimiz bəzi ağacların kəsilməsini görərkən elə bildim ki, məni yaralayıblar. Mən dəfələrlə demişəm, bir də deyirəm, kim hansı bir sağlam ağacı kəsirsə, hesab edin ki, o, mənim qolumu, barmaqlarımı kəsir.... İnsan qurmalıdır, yaratmalıdır... hər bir insan ağac əkməlidir, becərməlidir, böyütməlidir. Əgər kimsə sağlam ağacı kəsirsə, o nəinki xalqına, millətinə, ölkəsinə xəyanət edir, o, öz ailəsinə, özü-özünə xəyanət edir. Ona görə də Siz hər bir ağacı qorumalısınız, hər bir ağacın qorunması uğrunda mübarizə aparmalısınız..."

Bu kəlamlarda dövlət xadiminin təbiətə böyük qaygısı öz əksinin tapır. Ulu Öndər Heydər Əliyevin rəhbərliyi dövründə qəbul edilmiş ekoloji sərəncam, qərar və qanunlar ölkəmizin təbiətinin sağlamlığına yönəlmişdir. Azərbaycan xalqı qəbul etdiyi qərarların arxasında duran qayğıkeş, qüdrətli, saf qəlbli bir insan görürdü.

Ekoloji siyasət Ulu Öndər Heydər Əliyevin çoxcəhətli fəaliyyətinin mühüm tərkib hissəsidir. Ulu Öndərin zəngin maddi sərvətlərimizə, meşələrə, dağlara, çaylara, yaşıllığa, bulaqlara, bir sözlə, təbiətə münasibəti onun azərbaycançılıq ideyasının tərkib hissəsi idi. Ətraf mühitin mühafizəsi, təbii sərvətlərdən səmərəli istifadə və ekoloji vəziyyətin yaxşılaşdırılması məsələləri daima Ulu Öndərin xüsusi diqqət mərkəzində olmuşdur.

1993-2003-cü illərdə ətraf mühitin qorunması ilə bağlı respublikada bir sira struktur islahatları aparılmış, təbii ehtiyatlardan istifadənin ayrı-ayrı aspektləri ilə məşğul olan və qismən bir-birini təkrarlayan bir sıra birlik və komitələr ləğv edilərək, onların bazasında Prezidentin 23 may 2001-ci il tarixli 485 saylı Fərmanı ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradılmışdır.

İnsanların həyat tərzini və mədəni səviyyəsini yüksəltmək, təbiəti gələcək nəsillər üçün qoruyub saxlamaq Ulu Öndərin o illərdəki fəaliyyətinin əsas məğzi olmuşdur.

Ekologiyanın qorunması ilə bağlı Ulu Öndərin əsasını qoyduğu ənənə bu gün də Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Respublikamızda reallaşdırılan milli inkişaf strategiyasının prioritet istiqamətlərindən biri insanların sağlam təbii mühitdə yaşamasını və ətraf mühitin mühafizəsini ən yüksək səviyyədə təmin etməkdir. Elə bunun da bariz nümunəsi Prezident İlham Əliyevin 2010-cu ili ölkədə "Ekologiya ili" elan etməsi olub. Prezident İlham Əliyev lay suları altında qalan ərazilərin, neftlə və digər istehsalat tullantıları ilə çirklənmiş torpaqların ekoloji vəziyyətinin yaxşılaşdırılmasına xüsusi diqqət göstərib. Əhalinin ekoloji cəhətdən təmiz su ilə təminatının yaxşılaşdırılması ilə bağlı əməli işlər görülmüşdür. Ölkədə yeni park və xiyabanlar salınıb, milyonlarla ağac əkilib. Bütün bunlar vətəndaşların

sağlam mühitdə yaşamasına, ətraf mühitin qorunmasına xidmət edir. Qanunsuz ağac kəsənlərin qarşısının alınması ilə mübarizədə Prezident İlham Əliyevin nümayiş etdirdiyi qətiyyətli mövqenin təməlində yalnız bir amal dayanıb: insanların sağlamlığını qorumaq!

Möhtərəm Prezident İlham Əliyev, hörmətli Birinci Vitse-prezident Mehriban xanım Əliyeva Ulu Öndərin ekoloji arzu və planlarını dönmədən qətiyyətlə həyata keçirirlər. Kütləvi ağacəkmə, yaşıllaşdırma, mövcud yaşıllıqlara aqrotexniki xidmət stabil və davamlı prosesə, vətəndaş vərdişinə çevrilmişdir. Onu da qeyd etmək lazımdır ki, Ulu Öndəriin müdrik siyasətini uğurla davam etdirən Prezident cənab İlham Əliyev təbiətə dövlət qayğısını daim diqqət mərkəzində saxlayır. Təbiətin mühafizəsi ilə əlaqədar cənab Prezident İlham Əliyevin imzası ilə həyata keçirilən proqramlar təbiətimizin daha da zənginləşməsindən, təbii sərvətlərimizin etibarlı və effektli mühafizəsindən xəbər verir.